Azərbaycan.- 2021.-25 aprel. S. 1; 8.

# Paşinyan repressiyaların yeni dalğasını başladır

Ermənistanın baş naziri Nikol Paşinyanın Zəngəzur vilayətinə səfərindən sonra ölkədə siyasi gərginlik yenidən özünün pik həddinə çatıb. Səbəb hüquq mühafizə orqanları tərəfindən aparılan son həbslərdir. Ölkənin İstintaq Komitəsi artıq Zəngəzur vilayətindən olan 19 müxalifətçini Nikol Paşinyanın regiona səfəri zamanı xuliqanlıq və ictimai asayişi pozan kütləvi tədbirlər təşkil etməkdə günahlandıraraq məsuliyyətə cəlb edib.

Qurumun məlumatında deyilir: “Əldə olunmuş kifayət qədər dəlil əsasında 19 nəfərə qarşı ittiham irəli sürülüb. Onlardan 9-u Ermənistan Cinayət Məcəlləsinin 258-ci maddəsinin 3-cü bəndi (xuliqanlıq), 10-u isə 258-ci maddənin 1-ci bəndi (ictimai asayişi pozan kütləvi tədbirlərin təşkili) ilə ittiham olunub. İstintaq 8 nəfərə qarşı həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəməyə müraciət edib”.

Ermənistan Baş Polis İdarəsinin rəis müavini Ara Fidanyan daha bir neçə nəfərin də saxlanıldığını qeyd edir: “Zəngəzurda əməliyyat-axtarış fəaliyyətinin nəticələrindən sonra bir neçə vətəndaş hüquq mühafizə orqanları əməkdaşları tərəfindən saxlanılıb”.

Bundan əvvəl isə Mehri şəhərinin meri Mxitar Zakaryanın hüquq mühafizə orqanları tərəfindən Yerevana aparıldığı açıqlanıb. Fidanyan barəsində cinayət işi başlanılmış Zakaryanın prosessual vəziyyəti barədə suala cavabında bildirib ki, bu, istintaq prosesindən sonra aydınlaşdırılacaq.

***Ardı 8-ci səh.***

# Paşinyan repressiyaların yeni dalğasını başladır

*Əvvəli 1-ci səh.*

Onun sözlərinə görə, vətəndaş hüquq mühafizə orqanlarına aparıldıqdan dərhal sonra prosessual status ala bilmir: “Əgər hərəkətlərində cinayət tərkibinin olmadığı ortaya çıxsa, ona qarşı heç bir tədbir görülməyəcək”.

Həbslərdən sonra iqtidar və müxalifət arasında yeni gərginlik və toqquşma başlanıb. Ermənistan Baş Prokurorluğunun binası qarşısına toplaşanlar Zəngəzur vilayətində tutulanların azad olunmasını tələb edirlər. Etirazçılar bildirirlər ki, onlar qanunsuz saxlanılıb. Etirazçılar binaya yumurtalar atıb. Bundan sonra polislə aksiya iştirakçıları arasında qarşıdurma baş verib. Daha sonra aksiyaçılar polisə butulkalar atıblar. Toqquşma zamanı polis əməkdaşlarından biri xəsarət alıb. Qarşıdurma ilə əlaqədar 14 etirazçı saxlanılıb.

Belə bir vaxtda Ermənistanın Baş Prokurorluğu Robert Koçaryanın, Seyran Ohanyanın, Yuri Xaçaturovun və Armen Gevorkyanın “1 mart işi” üzrə cinayət təqibindən azad olunmasına dair birinci instansiya məhkəməsinin hökmündən şikayət verib. Prokurorluğun sözçüsü Arevik Xaçaturyan  faktı təsdiq edib. Xatırladaq ki, keçmiş prezident və onun tabeçiliyində olmuş üç nəfər aprelin 6-da cinayət məsuliyyətindən azad olunublar. Buna səbəb Cinayət Məcəlləsinin sözügedən fiqurantlara qarşı dövlət çevrilişi ittihamını ehtiva edən 301.1-ci maddəsinin Konstitusiya Məhkəməsi tərəfindən ləğvi olub. Halbuki Ermənistan Xüsusi İstintaq Xidməti 26 aprel 2018-ci ildə Koçaryana qarşı konstitusiya quruluşunun devrilməsi ittihamını irəli sürmüşdü.

Xatırladaq ki, Koçaryan 2008-ci il martın 1-də baş vermiş qanlı hadisələrdə ittiham edilirdi. Keçmiş prezident isə bu ittihamın “qondarma və siyasi motivli” olmasını bildirir. Eyni maddə ilə KTMT-nin keçmiş baş katibi Yuri Xaçaturov, keçmiş müdafiə naziri Seyran Ohanyan və Ermənistanın prezident administrasiyasının keçmiş rəhbəri Armen Gevorkyan da ittiham olunurdular.

İndi adıçəkilən şəxslər üzrə Baş Prokurorluq əvvəlki ittihamları yeniləyir. Bu da həmin şəxslərin yenidən həbsə atılmasını istisna etmir. Göründüyü kimi, Paşinyan repressiyaların yeni dalğasını başladır. Hesab edilir ki, inzibati metodların işə salınması ilə müxaliflərin neytrallaşdırılması fonunda iyunun 20-də keçiriləcək parlament seçkilərində Paşinyan və komandası daha asan qələbə əldə edəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***